# Ənvər Nəzirlinin xatirəsinə



Zər qəzəllər yaradan bir sinədəftər getdi,
Zərgərin qaldı zəri, amma ki, zərgər getdi.

Vardı təb gövhəri, söz cövhəri canında onun,
Uçdu ruh, qalmadı can, candakı cövhər getdi.

Ərəbi, farsı bilən türk balası qeyb oldu,
Atəşin sözləri qaldı, o səməndər getdi.

Əruzun «köhnə qəzəllər» deyilən dövrü olub,
Əruzun «tazə qəzəl» mülkünə sərvər, getdi.

Yazdığı çox qəzəlində hünərin izləri var,
Hünəri qaldı kitabında, hünərvər getdi.

Dilinin qədrini şövq ilə bilən şair idi,
Milli sözlərlə qəzəllər yaradan ər, getdi.

Mən onun dostu kimi yad edirəm xatirini,
Əli dəftərli, qələmli, dili şəkkər, getdi.

Onu sıyrılmış olan xəncərə bənzətmədəyəm,
Qaldı qın, qaldı kəmər, amma ki, xəncər getdi.

Dərs deyib bir çoxuna görmədi lakin elə kəs
Hacı Vasim kimi şagirdinə bənzər, getdi.

Cismi yoxdursa da, sağdır o Füzuli, Hadi,
Fəxr edək qaldı Nizami, hanı Səncər? Getdi.

Yaşadır «Divan»ı Heyran xanımı illərlə,
Məhsəti adlı o Gövhər hanı? Gövhər getdi.

Gözünü açdı Gülarə, Ələmi tək şair,
Gözünü yumdu Mail, Qəni, Azər getdi.

Mir Cəlalla, Hacı Rafiqlə yaxın yoldaş idi,
Onları yandıra bilməz, bilirəm, «hər getdi».

Ürəyində hələ çox vardı şeirlər, əfsus
Qaldı gizlində, onunla neçə dəftər getdi.

Bir Əli Rza onu illər boyu dərc eylərdi,
O Əli Rza necə də oldu mükəddər!.. Getdi!!!

Vətənə, xalqa sədaqətli vətəndaş oldu,
Qarabağ yanğısı cismiylə bərabər getdi.

Yaxşı oğlu, qızı qalmışdır onun, mən biləni
Nisgili qalmadı könlündə, gülümsər getdi.

Ey Əzizə, qoruyurdun atanı zivər tək,
Bəzək idi evinə, evdən o zivər getdi.

Yaşadı bir kişi ömrü uzun ömründə atan,
Hər işində zəfərə yetdi, müzəffər getdi.

Düz bir ildir yeri görsənmədədir, ey Şahin,
İnana bilməyirəm mən hələ Ənvər getdi.

***Şahin FAZİL***
*13 iyul 2017*

